# *Şəhid anası:* "Qısa ömrünə baxmayaraq, o, qəhrəmanlığı ilə yaddaşlarda əbədi qalacaq"







Torpağın da yaddaşı var və o yaddaşda Vətən uğrunda can verənlərin adı əbədi yaşayır. Vətəni üçün canını fəda edən belə igidlərdən biri də gənc yaşında ölümsüzlüyə qovuşan Asif Səxavət oğlu Qəribovdur.

AZƏRTAC xəbər verir ki, Asif Qəribov 2000-ci il sentyabrın 10-da Şirvan şəhərində anadan olub. Böyüdükcə zəhməti, mərdliyi və əxlaqı ilə seçilən Asif uşaqlıqdan fərqli bir xarakterə malik idi - arzuları böyüklərə məxsus idi. Atasını itirdikdən sonra ailəsinin dayağına çevrilən Asif bacı-qardaşına həmişə dayaq olub. Çiyinlərinə düşən məsuliyyəti yeniyetmə yaşlarından ləyaqətlə daşıyıb.

Onun ən böyük arzusu şəhidlik zirvəsinə ucalmaq idi, çünki Asif üçün Vətən sadəcə torpaq deyil, müqəddəs bir amal idi. Tez-tez "bir gün bu torpaqları öz canımızla, qanımızla azad edəcəyik" deyərdi.

Şəhidin anası Mərmər Qəribova oğlunu belə xatırlayır: "Asif çox vətənpərvər, ağıllı və zəhmətkeş idi. O deyirdi ki, bir gün torpaqlarımızı azad edəcəyik və siz şəhid valideyni olduğunuzla qürur duyacaqsınız. Mən indi qürurluyam, çünki Asifin arzusu çin oldu. Qısa ömrünə baxmayaraq, o, qəhrəmanlığı ilə yaddaşlarda əbədi qalacaq. Döyüşlər başlayan kimi ön cəbhəyə yollandı və qəhrəmancasına vuruşaraq şəhidlik məqamına ucaldı. Biz analar üçün övlad itkisi nə qədər ağır olsa da, övladlarımızla bir o qədər qürur duyuruq".

Şəhidin dayısı Pənah Zərbalıyev isə deyir: "Asifin uşaqlıqdan hərbiyə marağı var idi. Həqiqi hərbi xidmətə çağırılanda sevincinin həddi-hüdudu yox idi və ruh yüksəkliyi ilə xidmətə yollandı. Əsgərliyini bitirdikdən sonra yenə də ordu sıralarında qalmaq istəyirdi. Çevikliyinə və fiziki qüvvəsinə görə Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmət etdiyi üçün çox sevinirdi. Xidmət vaxtı da arzusuna çatdı, Vətənimizin azadlığı uğrunda silaha sarıldı. Döyüşlər başlayandan mərdliyi və şücaəti ilə seçildi. Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid oldu. Onun dəfnində böyük izdiham var idi. Qəlbimiz ağrısa da, qürurlu idik, çünki cəbhədən gələn qələbə xəbərlərini Asif və onun kimi qəhrəmanların sayəsində eşidirdik. Onlar canlarını fəda edərək torpaqlarımızı azad etdilər və daim xalqımızın yaddaşında qəhrəman olaraq yaşayacaqlar".

Qeyd edək ki, Asif Qəribov göstərdiyi şücaətə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Azərbaycan.- 2025.- 29 oktyabr (№231).- S.16.